# Görkəmli alim, əsl pedaqoq



Azərbaycan dünya elminə bir sıra görkəmli alimlər bəxş edib. Qədim elm, təhsil ənənələrinə malik Azərbaycanın XX əsrdə yetişdirdiyi görkəmli alimlərdən biri də Revekka Yulyevna Barsukdur.

R.Y.Barsuk 1916-cı ildə Bakı şəhərində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra, 1936-cı ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutuna (indiki Azərbaycan Dövlət Pedaqoji Universiteti) daxil olmuş və ingilis dili ixtisası üzrə təhsil almışdır. Əmək fəaliyyətinə Azərbaycan Dövlət Universitetində ( indiki Bakı Dövlət Universiteti) ingilis dili müəllimi kimi başlamışdır. Sonralar ingilis dili fakültəsinin dekanı kimi çalışmışdır.

Pedaqoji fəaliyyəti ilə yanaşı, elmi tədqiqat işini hazırlamış və onu 1948-ci ildə Moskvada müvəffəqiyyətlə müdafiə edərək pedaqoji elmlər namizədi elmi dərəcəsi almışdır. “Milli məktəblərdə xarici dillərin tədrisinin əsas problemləri” mövzusunda yazılmış dissertasiya işi mütəxəssislər tərəfindən yüksək qiymətləndirilmişdir.

R.Y.Barsuk 1959-cu ildən M.F.Axundov adına Azərbaycan Pedaqoji İnstitutunda (indiki Azərbaycan Dillər Universiteti) əvvəlcə kafedra müdiri, sonra elmi işlər üzrə prorektor vəzifələrində çalışmış, daha sonra, ömrünün sonunadək xarici dillərin tədrisi metodikası kafedrasına rəhbərlik etmişdir.

O, 1970-ci ildə “İkidillilik şəraitində xarici dillərin tədrisinin əsasları” mövzusunda doktorluq dissertasiya işini Moskvada müdafiə edərək pedaqoji elmlər doktoru elmi dərəcəsi almışdır. Dissertasiya işinin bilinqvizm mühitində xarici dillərin tədrisi məsələlərinə həsr edilməsi ilk cəhd olduğu üçün maraqla qarşılanmışdır. Belə ki, indi bir çox tədqiqatçıların araşdırdığı “ana dili, xarici dil, ikinci dil, ikinci xarici dil” anlayışları hələ keçən əsrin 60-cı illərində R.Y.Barsuk tərəfindən tədqiq olunmuşdur. Hazırda xarici dillərin tədrisi ilə bağlı ikidillilik və çoxdillilik problemləri ilə məşğul olan, dilöyrənmə prosesində ana dilinin rolunu düzgün müəyyənləşdirən hər bir tədqiqatçı onun əsərlərinə istinad edir.

Professor R.Y.Barsukun əmək fəaliyyətini elmi, pedaqoji və ictimai kimi 3 qrupa ayırmaq olar. O, bir alim kimi müxtəlif ölkələrin nüfuzlu elmi jurnallarında və məcmuələrində nəşr olunmuş çoxlu sayda elmi əsərlərin müəllifi, onlarla aspirantın elmi rəhbəri və elmi işçilərin məsləhətçisi olmuş, bir çox dissertasiya işlərinə və avtoreferatlara rəylər vermişdir. Eyni zamanda ölkəmizdən kənarda müdafiə olunan dissertasiya işlərinə opponentlik etmişdir.

O, dəfələrlə respublikamızda və digər şəhərlərdə (Moskva, Leninqrad, Kiyev, Almaatı, Tbilisi) keçirilən beynəlxalq konfranslarda çıxış etmiş və ölkəmizi layiqincə təmsil etmişdir.

R.Y.Barsukun əmək fəaliyyətində ikinci istiqamət onun pedaqoji fəaliyyətidir. Bu fəaliyyəti də iki hissəyə ayırmaq olar. Birincisi, ali məktəbdə pedaqoji fəaliyyətidir. İkincisi, orta məktəblərdə xarici dillərin tədrisi məsələlərinə dair işləyib hazırladığı proqramlar, dərsliklər və dərs vəsaitləri olmuşdur.

Məlumdur ki, məktəblilər üçün dərslik yazmaq zəngin bilik, çoxillik təcrübə, yüksək analiz və sintez qabiliyyəti, böyük pedaqoji ustalıq tələb edir. Dərslik müəllifi yaxşı alim, pedaqoq olmaqla yanaşı, həm də həssas psixoloq olmalıdır. Bütün bu xüsusiyyətləri özündə ehtiva edən görkəmli alim həmmüəllif və redaktor kimi O.Musayev, R.Qayıbova, F.Seyidov, H.Mahmudov, Ş.Səfiquliyev və başqaları ilə birlikdə orta məktəblərin hər bir sinfi üçün ingilis dili dərsliklərinin hazırlanmasında yaxından iştirak etmiş, həmin dərsliklərlə işləmək üçün müəllimlərə kömək vəsaitləri tərtib etmişdir. “Səkkizillik məktəblərdə xarici dillərin tədrisi”, “Milli məktəblərdə xarici dillərin tədrisinin əsas problemləri”, “İkidillik şəraitində xarici dillərin tədrisinin əsasları”, “İngilis dilinin tədrisi metodikası” adlı monoqrafiya və kitablar onun rəhbərliyi ilə çap olunmuşdur.

R.Y.Barsukun əmək fəaliyyətinin üçüncü istiqaməti onun ictimai fəaliyyəti ilə bağlıdır. O, həm institut, həm də respublika miqyasında həyata keçirilən pedaqoji islahatların təşkilatçısı və iştirakçısı olmuşdur. Respublika Təhsil Şurasının sədrinin müavini, Respublika Təhsil Nazirliyinin Elmi-Metodiki Şurasının “Xarici dillər” bölməsinin sədri kimi ictimai vəzifələri şərəflə yerinə yetirmişdir.

Bütün mənalı ömrünü şərəflə Azərbaycan xalqının elm və təhsilinə həsr edən R.Y.Barsuk işlədiyi institutun professor-müəllim heyəti və tələbə kollektivinin, həmçinin respublika pedaqoji ictimaiyyətinin dərin hörmət və rəğbətini qazanmışdı. Onun rəhbərlik etdiyi kafedra əməkdaşlarına, tələbə və aspirantlara səmimi və mehriban davranışı, yüksək həssaslıqla, bir valideyn qayğısı ilə yanaşması təhsil işçiləri üçün layiqli bir örnəkdir.

R.Y.Barsuk həm də nəcib və qayğıkeş bir ana olmuşdur. Onun həyat yoldaşı Qusman Solomon Moiseyeviç tibb elmləri doktoru, professor idi. Onların böyütdükləri, tərbiyə etdikləri oğulları Yuliy və Mixail Qusmanlar ailə ənənələrini davam etdirmiş, yüksək ixtisaslı mütəxəssislər kimi yetişmişlər. Yuliy Qusman Rusiyanın əməkdar incəsənət xadimi, Azərbaycanın xalq artisti, Rusiya Kinematoqraflar Cəmiyyətinin katibi, Rusiya Jurnalistlər və Teatr Xadimləri Cəmiyyətinin üzvü, professordur. Mixail Qusman isə Rusiyanın əməkdar mədəniyyət işçisi, Rusiya dövlət mükafatı laureatı, İTAR-TASS Agentliyinin direktorunun birinci müavinidir.

Dəyərli alimlərimizdən biri olan, nəinki Azərbaycanda, inamla demək olar ki, keçmiş SSRİ məkanında tanınmış professor, elm adamı, təhsil təşkilatçısı, bacarıqlı müəllim, xeyirxah insan R.Y.Barsuk belə xatırlanır və o, onu tanıyanların yaddaşında həmişə qalacaqdır.

**Əmralı ŞİRƏLİYEV,**
*ADU-nun linqvodidaktika kafedrasının dosenti*